## Onlayn satışa dəstək

- Məhsul və xidmətlərini onlayn formatda tanıtmaq və satmaq istəyən KOB subyektləri Agentliyin dəstəyi ilə yaradılmış www.kobmarket.az onlayn satış platformasından istifadə edə bilərlər.

- Portalın məqsədi ölkədə onlayn ticarətin inkişafına, KOB-ların satış imkanlarının artırılmasına, bu sahədə rəqəmsallaşmanın sürətləndirilməsinə dəstək olmaq, nağdsız ödənişlərin artırılmasıdır.

- Portal KOB-lara şəxsi internet mağazasının yaradılması üçün öz maliyyə vəsaitlərindən istifadə etmədən məhsul və xidmətlərini tanıtmağa, satışını həyata keçirməyə, ödənişlərini onlayn şəkildə qəbul etməyə və çatdırılmasını kənar daşıma şirkəti tərəfindən avtomatik həyata keçirmək imkanları yaradan internet-mağaza şəklində fəaliyyət göstərir.

- www.kobmarket.az portalında onlayn mağaza açmaq istəyən mikro, kiçik və orta sahibkarlıq subyektləri portalda qeydiyyatdan keçməlidir.

KOBİA

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# BAZARLARA ÇIXIŞA DƏSTƏK

www.smb.gov.az

Mikro, kiçik və orta biznes (KOB) subyektlərinin satış imkanlarının genişləndirilməsinə dəstək məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən aşağıdakı istiqamətlərdə dəstək göstərilir:

## Ticarət şəbəkələrinə çıxışa dəstək

- Mikro və kiçik sahibkarlıq subyektlərinin ticarət şəbəkələrinə (marketlər şəbəkələri, iki və daha çox mağazası olan və qeyri-qida məhsullarının satışını həyata keçirən mağazalar) çıxışına Agentlik tərəfindən dəstək göstərilir.

- Bu dəstək Nazirlər Kabinetinin "Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası"na uyğun olaraq həyata keçirilir.

- Məhsullarını güzəştli şərtlərlə ticarət şəbəkələrində yerləşdirmək istəyən mikro və kiçik sahibkarlıq subyektləri Agentliyin saytı vasitəsilə müraciət edə bilərlər.

## Sərgi və yarmarkalarda iştiraka dəstək

- Agentlik mikro, kiçik və orta sahibkarlıq subyektlərinin müxtəlif ixtisaslaşmış sərgi və yarmarkalarda iştirakına dəstək göstərir.

- Məqsəd KOB-ların məhsul və xidmətlərini daha geniş auditoriyaya təqdim etməklə onların tanıdılmasına və satış imkanlarının genişləndirilməsinə, yeni biznes əlaqələri qurmasına dəstək olmaqdır.

- Sərgi və yarmarkalarda KOB-ların iştirakına dəstək Agentlik tərəfindən ödənişsiz həyata keçirilir.

- Bu dəstəkdən faydalanmaq istəyən KOB subyektləri müraciətlərində Agentliyin təşkil etdiyi və ya xüsusi stendlə təmsil olunduğu sərginin və ya yarmarkanın adını qeyd etməklə KOBİA-nın www.smb.gov.az saytı vasitəsilə müraciət edə bilərlər.